**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

Əlyazması
hüququnda

**ZAUR RAUF OĞLU ƏSƏDOV**

# Azərbaycan Respublikasının regionlarında lizinq xidmətinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi istiqamətləri

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2017**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər**: iqtisad elmləri doktoru, professor
R.B.Əliyev

**Rəsmi opponentlər**: iqtisad elmləri doktoru, professor
İsa Hüseyn oğlu Alıyev

iqtisad üzrə fəlsəfə doktoru, dosent
Ramil Zahid oğlu Hüseyn

**Aparıcı təşkilat**: Azərbaycan Memarlıq və İnşaat Universiteti

Dissertasiyanın işinin müdafiəsi 30 yanvar 2018-ci il saat $14^{00}$-da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı şəhəri, H.Cavid prospekti 115, II mərtəbə, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat 28 dekabr 2017- ci ildə göndərilmişdir.

**D.01.181 Dissertasiya Şurasının**
**elmi katibi, i.ü.f.d., dosent** **S.T.Şıxəliyeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Müstəqilliyimizin bərpa olunduğu 25 ildən artıq dövr ərzində ölkəmizdə kənd təsərrüfatının inkişafına dair bir sıra qanunlar, qanunvericilik aktları, dövlət proqramları qəbul olunmuşdur. Artıq 2004-2008, 2009-2013-cü illər üçün yerinə yetirilmiş və 2014-2018-ci illər üçün qəbul olunmuş «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda nəzərdə tutulan fərqli vəzifələr uğurla həyara keçirilir. Təsiri çoxşaxəli olan, istər iqtisadi və istərsə də sosial məna daşıyan bu proqramlar çərçivəsində görülən işlər bölgələrimizdə qeyri-neft sektorunun inkişafına yeni müəssisələrin yaradılmasına, işsizliyin azaldılmasına, idxalı əvəz edən yeni məhsulların istehsalna təminat yaratmış, aqrar sahə sürətlə inkişaf etməyə başlamışdır.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin mühüm istiqamətlərindən biri - əhalinin ərzaq məhsullarına tələbatının ödənilməsidir. Bunun üçün ilk növbədə aqrar sferanın maddi-texniki bazası möhkəmləndirilməlidir. Bu problemin həlli üçün respublikamızın kənd təsərrüfatında lizinq kompaniyalarının yaradılması, texnikanın fermerlərə lizinq yolu ilə verilməsi xüsusi əhəmiyyət kəsb edir.

Ölkə Prezidentinin "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 23 oktyabr 2004-cü ildə imzaladığı Sərəncamı bu istiqamətdə işləri canlandırmış, həyata keçirilən sistemli tədbirlər və dövlət dəstəyi hesabına kənd təsərrüfatı istehsalçılarının müvafiq texnika və avadanlıqlarla təminatının yaxşılaşdırılması istiqamətində köklü irəliləyişə nail olunmuşdur. 2005-2015-ci illər ərzində "Aqrolizinq" ASC tərəfindən 1869 ədəd taxılyığan kombayn, 7265 ədəd traktor və 14507 ədəd digər kənd təsərrüfatı texnikası alınmışdır. Qeyd olunan illər ərzində bütünlükdə 18090 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası hüquqi və fiziki şəxslərə lizinqə verilmiş və ya lizinq yolu ilə satılmışdır. Bununla belə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə göstərilir ki, texnika parkındakı yeni alınan maşın və avadanlıqların sayı artsa da, istismar müddəti başa çatan texnikaların yeniləri ilə əvəz edilməsinə ehtiyac vardır. Məsələn, 2015-ci ildə taxıl biçininə cəlb edilmiş 2660 ədəd taxılyığan kombaynın təxminən yarısı artıq fiziki və mənəvi cəhətdən köhnəlmişdir. Eyni zamanda, istehsalın intensivləşməsi və əkin sahələrinin perspektiv struktur dəyişikliyi

siyasətinin tərkib hissəsi olaraq pambıq, kartof, tərəvəz, şəkər çuğunduru və digər sahələr üzrə istehsalın mexanikləşdirilməsi səviyyəsinin artırılması məqsədilə, bu sahələr üzrə də mövcud texnika parkının genişləndirilməsinə zərurət vardır. Bununla yanaçı, aqrotexniki xidmətlərin həyata keçirilməsi sahəsində rəqabətin və keyfiyyətin yüksəldilməsi məqsədilə özəl aqroservis xidməti göstərən biznes subyektləri şəbəkəsinin genişləndirilməsi də vacib şərtdir.

Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə Prezidenti cənab İlham Əliyev demişdir: "Hesab edirəm ki, bu il kənd təsərrüfatı texnikasının alınması ilə bağlı rekord il olmuşdur, lakin bəzi kənd təsərrüfatı sahələrinin inkişafı üçün xüsusi texnikanın alınmasının davam etdirilməsi vacibdir."

Digər tərəfdən, «Aqrolizinq» dövlət şirkəti olduğundan onunla rəqabətə girə biləcək başqa şirkətlər azdır. Bu isə özəl lizinq şirkətlərinin kənd təsərrüfatı dairəsindən kənarda qalmasına, böyük maliyyə imkanlarına malik olan banklarla rəqabət aparmalarına mənfi təsir göstərir və bu da nəticədə lizinq iştirakçılarının sayının azalmasına və fəaliyyətinin zəifləməsinə, eləcə də lizinq portfelinin ümumi həcminin aşağı düşməsinə səbəb olur.

Deməli, ölkəmizdə lizinqin mümkün potensialından hələlik tam istifadə olunmur. İnkişaf etmiş ölkələrdə ÜDM-in 5% həcmi lizinq fəaliyyətinin payına düşür, lakin bu göstərici Azərbaycanda 1,0 %-dən azdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə 2020-ci ilə kimi lizinq əməliyyatlarının ÜDM-də payının 2 faizə çatdırılmasını hədəflənir.

Ümumiyyətlə, lizinq əməliyyatlarının həcmi ona olan tələbatdan xeyli geri qalır və lizinq biznesinin imkanlarından tam istifadə olunmur. Belə vəziyyətin əsas səbəblərindən biri lizinq xidmətinin təşkilati-iqtisadi mexanizminin tam formalaşmamasıdır. Ölkəmizdə lizinq problemi üzrə fundamental elmi işlər də azdır. Kənd təsərrüfatının bazar iqtisadiyyatı şəraitində maddi-texniki ehtiyatlarla təminatının yüksəldilməsi bu sahədə əhəmiyyətli tədqiqatların aparılmasını tələb edir.

Bütün bunlar kənd təsərrüfatında texniki vasitələrin lizinq vasitəsilə təminatının və regionlarda lizinq xidmətinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsinin vacibliyini şərtləşdirir və dissertasiya işinin mövzusunun aktuallığını göstərir.

**Problemin öyrənilmə səviyyəsi.** Qloballaşma prosesinin geniş vüsət aldığı bir şəraitdə lizinq münasibətlərinin səmərəli şəkildə formalaşdırılması məqsədilə nəzəri və təcrübi məsələlər respublikamızın və xarici ölkələrin iqtisadçı alimləri tərəfindən araşdırılmışdır. Kənd təsərrüfatında lizinq xidmətinin təşkilati-iqtisadi mexanizminin formalaşması amilləri Azərbaycan alimlərindən Z.Ə.Səmədzadə, S.V.Salahov, İ.H.Alıyev, İ.H.İbrahimov, R.B.Əliyev, R.K.İsgəndərov, İ.V.Əhmədov, R.Z.Hüseyn və xarici ölkə iqtisadçılarından Alferyeva V.P., Qazman V.D., Karp M.B., Dorofeyeva N.A., Kabatova E.B., Qoremikin V.A., Leşenko M.İ., Neçitaylov S. və digər alimlərin elmi işlərində də əks olunmuşdur. Dövri mətbuatda və lizinqin müxtəlif problemlərinə həsr edilən məqalələrdə, elmi-praktik konfranslarda kənd təsərrüfatında lizinqin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsinə kifayət qədər diqqət yetirilmir və bu mürəkkəb problemin yalnız ayrı-ayrı aspektləri nəzərdən keçirilmiş, lizinq müqaviləsi üzrə əsas müddəalar, servis xidməti, texnikanın lizinqlə göndərilməsinin təşkili və digər konseptual məsələlər kifayət qədər tədqiq edilməmişdir. Bütün bunlar bazar iqtisadiyyatı şəraitində maddi-texniki ehtiyatlarla təminat istiqamətində lizinq sisteminin təşkilati-idarəetmə mexanizminin təkmilləşməsinin istər nəzəri, istərsə də praktiki məsələlərinin hərtərəfli işlənməsinin vacibliyini ön plana çəkmişdir.

**Dissertasiyanın məqsəd və vəzifələri**. Dissertasiyada qarşıya qoyulan əsas məqsəd regionlarda lizinq xidmətinin təşkilati-iqtisadi mexanizminin tədqiqi, ölkənin kənd təsərrüfatında lizinq əməliyyatlarının mövcud vəziyyətinin təhlili, eləcə də liziniq vasitəsilə aqrar bölmənin inkişafının prioritet istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

Həmin məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur:

- lizinqin mahiyyəti, növləri və yaranmasının tarixi aspektlərinin araşdırılması;
- lizinq fəaliyyətində xarici təcrübənin və aqrar sahənin maddi-texniki ehtiyatlarla təminatının formalaşmasının tədqiqi;
- lizinq müqavilələri və regionlarda lizinq münasibətlərinin təşkilinin xüsusiyyətlərinin öyrənilməsi;
- regionlarda istehsal potensialından istifadənin və aqrar sahənin maddi-texniki təminatının mövcud vəziyyətinin təhlili;
- Azərbaycanın regionlarında lizinq xidmətinin təşkilati-iqtisadi mexanizminin mövcud vəziyyətinin qiymətləndirilməsi;

- aqrar sahədə istehsal olunan məhsulun ümumi həcmi ilə lizinq xidmətlərinin həcmi arasında riyazi asılılığın müəyyənləşdirilməsi;
- lizinqlə alınmış kənd təsərrüfatı maşınlarına optimal texniki xidmətin təşkilinin tədqiqi;
- Azərbaycanın regionlarında lizinq xidmətinin təkmilləşdirilməsi yollarının müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti** – respublikanın regionlarında aqrar sahə üzrə lizinq xidməti göstərən təsərrüfat subyektləridir.

**Tədqiqatın predmeti** – aqrar sahədə lizinq fəaliyyəti ilə bağlı təşkilati-iqtisadi məsələlərin öyrənilməsi və tədqiq edilməsidir.

**Tədqiqatın nəzəri-metodoloji əsasını və informasiya bazasını** respublikamızın və xarici ölkələrin lizinq problemlərinin araşdırılması ilə məşğul olan tanınmış iqtisadçı alimlərinin elmi əsərləri, elmi-tədqiqat müəssələrinin kənd təsərrüfatının inkişafı problemləri üzrə araşdırmaları, respublikamızda lizinq fəaliyyətinin həyata keçirilməsi qaydalarını müəyyənləşdirən normativ və qanunverici aktlar, eləcə də Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin məlumatları, dövri mətbuatda nəşr olunan statistik materiallar, ixtisaslaşdırılmış lizinq təşkilatlarının məlumatları təşkil edir.

Tədqiqat zamanı müşahidə, müqayisəli təhlil, qruplaşdırma, riyazi-statistik və digər üsullardan istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** kənd təsərrüfatının maddi-texniki təminatında lizinq münasibətlərinin formalaşması mexanizminin işlənib hazırlanmasından, ayrı-ayrı nəzəri və metodoloji müddəaların bütövlükdə dəqiqləşdirilməsindən ibarətdir.

O cümlədən:

- regionlarda lizinqin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi üçün aşağı, orta, yüksək səviyyədə istehsal-texniki xidmət müəssisələrinin yaradılması təklif edilmişdir;
- lizinqlə alınmış kənd təsərrüfatı maşınlarına optimal texniki xidmətin təşkili qaydaları müəyyənləşdirilmişdir;
- lizinq xidmətləri həcminin bölgələrdə istehsal edilən kənd təsərrüfatı məhsullarının ümumi həcminə təsiri, həmçinin onun elastiklik əmsalı hesablanmış, ekonometrik model hazırlanmışdır.
- qanunvericilik bazasının müasir dövrün tələbinə uyğun olaraq təkmilləşməsi yolları təklif olunmuşdur;
- regionlarda lizinq xidmətlərinin səmərəliliyini yüksəltmək məqsədi ilə rəqabət mühitinin formalaşması mexanizmi işlənilmişdir.

**Tədqiqatın nəticələrinin praktiki əhəmiyyəti.** Dissertasiyada şərh olunan nəzəri materiallar və metodiki müddəalardan ərazi kənd təsərrüfatı idarələrində, lizinq kompaniyaları və fermerlərin praktiki fəaliyyətində istifadə oluna bilər.

Tədqiqatda həmçinin, regionlarda lizinq xidmətinin təşkilati-iqtisadi mexanizmini təkmilləşdirmək məqsədilə təkliflər verilmişdir.

Dissertasiya işində irəli sürülən nəticə və təkliflərdən Şamaxı ərazi kənd təsərrüfatı idarəsində maddi-texniki ehtiyatların formalaşmasında və fermerlərin praktiki fəaliyyətində istifadə olunur (Arayış №38, 09 mart 2010-cu il),

**Tədqiqatın nəticələrinin aprobasiyası**. Dissertasiyanın əsas müddəaları "Regionların sosial-iqtisadi inkişafının nəzəri və praktik məsələləri" (Gəncə, 2008), "Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatının iqtisadi problemləri" (Bakı, 2009), "İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşması" (Bakı, 2010), "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri" (Bakı, 2010), "Aqrar iqtisadiyyat müstəqilliyin 20 ilində" (Bakı, 2011), "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi" (Bakı, 2012), "Aqrar iqtisadiyyatın aktual problemləri" (Bakı, 2012), "Qloballaşma mühitində iqtisadi təhlükəsizliyin təmin olunmasında gömrük tənzimlənməsinin rolu" (Bakı, 2012), "Azərbaycanda yüksək texnologiyaların texniki-iqtisadi problemləri" (Bakı, 2013), "İslam maliyyəsi: müasir vəziyyət və gələcək gözləntilər" (Bakı, 2015), "Regionların innovativ sosial-iqtisadi inkişafı: reallıqlar və perspektivlər" (Bakı, 2015), "Azərbaycanda qeyri-neft sektorunda innovasiya fəaliyyətinin genişləndirilməsi" (Bakı, 2016), "Strateji islahatlar: qabaqlayıcı vergi siyasəti" (Bakı, 2017) və s. mövzularda keçirilmiş Beynəlxalq və respublika elmi-praktik konfranslarında məruzə edilmiş və bəyənilmişdir.

Tədqiqat işinin nəticələri və ayrı-ayrı müddəaları ümumi həcmi 12,0 ç.v. olan 1 kitab, 12 məqalə və 13 konfrans materialında dərc edilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş 157 adda (kitab, məqalə, tezis və internet materialları) ədəbiyyat siyahısından ibarətdir. İşdə 16 cədvəl və 5 şəkil vardır. İşin ümumi həcmi 137 səhifədir.

**Dissetasiya işinin məndəricatı**

**Giriş**

**I Fəsil. Lizinq münasibətlərinin nəzəri əsasları**

1.1. Lizinqin mahiyyəti, növləri və yaranmasının tarixi aspektləri

1.2. Lizinq fəaliyyətində xarici təcrübə və aqrar sahənin maddi-texniki ehtiyatlarla təminatının formalaşması

1.3. Lizinq müqavilələri və regionlarda lizinq münasibətlərinin təşkilinin xüsusiyyətləri

**II Fəsil. Azərbaycanın regionlarinda lizinq xidmətləri bazarının formalaşmasının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi**

2.1. Regionlarda istehsal potensialından istifadənin müasir səviyyəsi

2.2. Aqrar sahənin maddi-texniki təminatının mövcud vəziyyətinin təhlili

2.3. Azərbaycanın regionlarında lizinq xidmətinin təşkilati-iqtisadi mexanizminin mövcud vəziyyətinin qiymətləndirilməsi

**III Fəsil. Bazar iqtisadiyyati şəraitində lizinq xidmətinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi yolları**

3.1. Aqrar sahədə istehsal olunan məhsulun ümumi həcmi ilə lizinq xidmətlərinin həcmi arasında əlaqənin müəyyənləşdirilməsi

3.2. Lizinq yolu ilə alınmış kənd təsərrüfatı maşınlarına optimal texniki xidmətin təşkili

3.3. Azərbaycanın regionlarında lizinq xidmətinin təkmilləşdirilməsi yolları

**Nəticə və təkliflər**

**İstifadə olunmuş ədəbiyyat**

## Dissertasiya işinin müdafiəyə çıxarılan əsas müddəaları

1. **Aqrar sahədə lizinq münasibətlərinin formalaşması mexanizmi.** İnvestisiya fəaliyyətini canlandıran lizinq istehsalın inkişafına təkan verir, istehsalı qabaqcıl və müasir texnika ilə təmin etməyə, ölkədə aqrar sahənin strukturunu yeniləşdirməyə və sahibkarlığın inkişafını sürətləndirməyə təminat yaradır.

İngilis termini olan "lease" sözündən götürülmüş və tərcüməsi icarə olan mənanı daşyan "Lizinq" anlayışı əsrlərlə formalaşmışdır. Beş min illik tarixi sənədlər sübut edir ki, ilk icarə münasibətləri Yaxın Şərq dövlətlərində əmələ gəlmişdir.

Lizinqin üç əsas növünü fərqləndirirlər: maliyyə, qayıdan və operativ. Lizinqin maliyyə növü daha geniş yayılmışdır. O, əmlakın uzun müddətə lizinqə verilməsini və onun istifadəsi müddətində dəyərinin tam ödənilməsini nəzərdə tutur.

Lizinq özündə bank krediti, icarə və investisiya elementlərini cəmləşdirdiyindən, bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq daim tənzimlənməsi və təkmilləşdirilməsi zəruridir. Tədqiqatlar göstərir ki, inkişaf etmiş ölkələrdə lizinq xidmətlərinin təşkilati-iqtisadi mexanizmi müəyyən səviyyədə formalaşmışdır.

Hal-hazırda ölkəmizdə kənd təsərrüfatı məhsulu istehsalçılarının maddi-texniki ehtiyatlarla təminatını və lizinq münasibətlərinin formalaşması mexanizmini 13 il əvvəl yaradılmış «Aqrolizinq» ASC həyata keçirir. Lakin yerlərdə kənd təsərrüfatı istehsalı vasitələri üzrə balanslaşdırılmış topdan satış bazarları hələ də tam formalaşmayıb və onların ərazi kənd təsərrüfatı idarələrində yaradılması prosesi davam etdirilir.

Lizinq sahibkarlıq fəaliyyətinin bir forması kimi sərbəst maliyyə vəsaitlərinin axtarılması və cəlb edilməsində mühüm rol oynayır. İqtisadi münasibətlərin və bütöv bir təsərrüfat əməliyyatlarının məcmusu kimi lizinqə vacib elementlər olan alqı-satqı, icarə, həmçinin borc, girov, zəmanət və s. daxildir.

Regionlarda təsərrüfatların lizinq yolu ilə maddi-texniki təchizatı yeni avadanlığın alınması ilə müqayisədə bir sıra iqtisadi üstünlüklərə malikdir. Belə ki, bazar münasibətlərinin inkişaf etdiyi indiki şəraitdə lizinq müxtəlif formalı təsərrüfatlara əsas fondların yeniləşməsi problemini həll etməyə imkan verir ki, nəticədə lizinq münasibətlərinin formalaşması mexanizmi təşəkkül tapır.

Lizinq əməliyyatlarının hüquqi forması lizinq verənlə lizinq alan arasında, eləcə də lizinq verənlə satıcı arasında yazılı qaydada bağlanılmış

alqı-satqı müqaviləsidir və yaxud həmin şəxslər arasında Mülki Məcəllənin lizinqlə bağlı maddələrinə müvafiq surətdə bağlanılmış üçtərəfli müqavilədir.

Aqrar sahədə lizinq münasibətlərinin formalaşmasında bağlanan müqavilələrin düzgün tərtibi mühüm şərtdir. Lizinq müqaviləsi üç tərəfin qarşılıqlı fəaliyyətini nəzərdə tutur: istehsalçı, lizinqverən və istifadəçi. Amortizasiya və vergi güzəştlərinin mövcudluğu lizinqverənin lizinqalanla lizinq müqaviləsinin qarşılıqlı güzəştli şərtlərlə bağlanmasına imkan verir. Bü güzəştlər lizinq ödəmələrinin dərəcəsinin azalması və onun ödənişi qrafikinin əlverişli şərtlərlə müəyyənləşdirilməsi yolu ilə reallaşdırılır.

Ölkəmizdə lizinq əməliyyatlarının genişləndirilməsi istiqamətində əvvəllər də müəyyən addımlar atılmışdır, ancaq 1990-cı illərin əvvəllərində keyfiyyətcə yeni mərhələ başlandı. İlk olaraq lizinq əməliyyatlarını kommersiya bankları tətbiq etməyə başladı və həmin dövrdə lizinq ödəmələri vergiyə cəlb olunmadı.

2003-cü ildən başlayaraq lizinq fəaliyyətinə marağın yenidən artması, onun vacibliyi və zəruriliyi rəsmi olaraq etiraf olunur. Son illər dövlətin investisiya siyasətini səciyyələndirən rəsmi materiallarda mərkəzləşdirilmiş innovasiya qoyuluşlarının yerləşdirilməsi ilə bağlı müsabiqələrə, eləcə də dövlət təşkilatları ilə yanaşı səhmdar şirkətlərin, fondların, kommersiya banklarının, lizinq firmalarının, yerli və xarici kapitalın digər nümayəndələrinin büdcədənkənar fondların istifadə olunmasına geniş cəlb edilməsinin vacibliyi göstərilir. Beləliklə, investisiya fəaliyyətində maliyyə aləti kimi lizinqin əhəmiyyəti və rolu rəsmi olaraq etiraf olunur.

**2. Lizinq xidmətinin təşkilati-iqtisadi mexanizminin mövcud vəziyyətinin qiymətləndirilməsi.** Lizinq əsasında texnikanın verilməsi zəif maddi-texniki bazaya malik olan təsərrüfatlar üçün mühüm əhəmiyyət kəsb etdiyi üçün regionlarda lizinq kompaniyalarının fəaliyyətinin genişləndirilməsi, texnikanın lizinqlə verilməsinin inkişafı zəruridir. Müasir şəraitdə kənd təsərrüfatında texniki təminat səviyyəsinin yüksəlməsinə müxtəlif yollarla nail olmaq olar. Bu həm lizinq əsasında, həm də təsərrüfatlara məqsədli kreditlərin verilməsi və digər formalarda texniki vasitələrin əldə olunması vasitəsilə həyata keçirilə bilər. İstənilən variantda dövlətin köməyi olmadan bu məsələni tam həll etmək mümkün deyil. Ümumiyyətlə, araşdırmalar göstərir ki, «Aqrolizinq» ASC-nə ayrılan vəsait dinamik xarakter almış və təkcə 2005-2017-ci illər ərzində dövlət büdcəsindən və ehtiyat fondları hesabına ona 500 milyon manatdan artıq vəsait ayrılmış, təkrar istifadədən qaytarılan 179 milyon manat və eləcə də müxtəlif

mənbələrdən ayrılan 13 milyon manat da daxil olmaqla, onun investisiya portfeli 750 milyon manatı ötmüşdür.

"Aqrolizinq" ASC-nin fəaliyyəti dövründə 8187 sahibkara 461,694 milyon manat dəyərində 24 913 ədəd texnika, o cümlədən 2014-2017-ci illərdə 4358 sahibkara 13083 ədəd texnika lizinqə verilmişdir. Ümumiyyətlə, 2005-2017-ci illərdə "Aqrolizinq" ASC tərəfindən 141,4 milyon manat dəyərində 155 dəst texnoloji avadanlıq alınaraq lizinqə verilmişdir.

Lakin "Aqrolizinq" ASC xətti ilə görüləsi işlər hələ çoxdur. Belə ki, 2016-cı ildə ölkəyə gətirilən kartofyığanların, çuğunduryığanların, qarğıdalı yığanların, kultivatorların, ot biçənlərin və s. texnikanın sayı artan tələbi ödəmir.

2016-cı ildə 1 qarğıdalıyığana 17928 ha, kartofyığana 12558 və çuğunduryığana 7061 ha, taxılyığana 736 ha əkin sahəsi düşmüşdür. Xüsusən də 2015-ci ildə kənd təsərrüfatı texnikasının uçotunun aparılması zamanı 2014-cü illə müqayisədə traktorların 2 dəfəyə, kotanların 10 dəfəyə, taxılyığanların 3.5 dəfəyə, toxum səpənlərin 11 dəfəyə, ot presləyənlərin 4 dəfəyə yaxın azalmasının üzə çıxması təcili tədbirlərin görülməsini zəruri edir. Bu çatışmazlığı aradan qaldırmaq üçün 2017-ci ilin I yarısında 16 müqavilə üzrə 9233 ədəd texnika (ümumi alışın 25%-i) sifariş verilmişdir.

Bütövlükdə cəmiyyət tərəfindən gətirilmiş texnika, mal-qara və kimyəvi maddələr haqqında məlumatları aşağıdakı kimi xarakterizə etmək olar:




Şək. Aqrolizinq ASC tərəfindən 2005-2017-ci illər ərzində ölkəyə gətirilmiş texnika, mal-qara və kimyəvi maddələr haqqında məlumat.

Şəkildən göründüyü kimi, 2005-ci ildən 2017-ci ilin iyul ayınadək 37739 ədəd texnika, 34043 baş iri buynuzlu mal-qara, 7571 baş xırda buynuzlu mal-qara, 669.12 min ton gübrə və 510.73 min ton pestisidlər sifariş olunmuşdur ki, bunlardan da respublikamıza lizinq yolu ilə 32075 ədəd texnika, 24525 baş iri buynuzlu mal-qara, 5947 baş xırda buynuzlu mal qara, 651.51 min ton gübrə və 499.73 min ton pestisidlər gətirilmişdir. Daxil olan vəsaitlərin daha çöx hissəsi son 3 ilin payına düşür. Belə ki, sifariş olunmuş texnikanın 51%-i, yəni 19210 ədədi, iri buynuzlu mal-qaranın 50.4%-i və ya 17167 ədədi, xırda buynuzlu mal-qaranın 55%-i və ya 4163 ədədi, gübrələrin 251.59 min tonu və ya 38%-i və pestisidlərin 230.59 min tonu və ya 45.2%-i məhz 2014-2017-ci illər ərzində ölkəyə gətirilmişdir.

**3. Aqrar sahədə istehsal olunan məhsulla lizinq xidmətlərinin həcmi arasında əlaqə.** Lizinq avadanlığın müvəqqəti istifadəyə verilməsi ilə bərabər, müqavilə müddəti başa çatdıqdan sonra, həmin avadanlığın ondan müvəqqəti istifadə edən tərəfə satılmasının mümkünlüyünü də nəzərdə tutur. Nəticədə ölkə üzrə ümumi xidmətlərin həcmində lizinqin xüsusi çəkisi ildən-ilə artmaqdadır. Buna görə də “Aqrolizinq” ASC-nə müxtəlif mənbələrdən ayrılmış vəsaitlərin həcmi ilə kənd təsərrüfatı məhsullarının ümumi həcmi arasındakı riyazi-statistik asılılığı öyrənmək üçün xətti reqressiya tənliyinə baxaq:

$$y=a_0+a_1x, \qquad (1)$$

burada, y - kənd təsərrüfatında istehsal olunan məhsulun ümumi həcmi, x –“Aqrolizinq” ASC tərəfindən yerinə yetirilən lizinq xidmətlərinin həcmi, $a_0$ və $a_1$ parametrlərdir. Həmin parametrlərin qiymətlərini müxtəlif üsullarla təyin etmək olar. Bu üsullardan təcrübədə daha geniş istifadə edilən ən kiçik kvadratlar üsuludur. Bu zaman $a_0$ və $a_1$ aşağıdakı normal xətti tənliklər sistemini həll etməklə tapılır.

$$\begin{cases} a_0 n + a_1 \sum_{i=1}^{n} x_i = \sum_{i=1}^{n} y_i \\ a_0 \sum_{i=1}^{n} x_i + a_1 \sum_{i=1}^{n} x_i^2 = \sum_{i=1}^{n} x_i y_i \end{cases} \qquad (2)$$

Bu sistemi həll etmək üçün aşağıdakı cədvəl tərtib edilir:

$x^2$ $xy$ $y^2$ $y-\bar{y}$ $(y-\bar{y})^2$

Parametrləri hesablamaq üçün lazımi köməkçi hesablamalar

| Sınaqlar | İllər | Kənd təsərrüfatı məhsullarının ümumi həcmi (y) | Lizinq xidmətləri həcmi (x) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2005 | 1776,0 | 25 | 625 | 44400 | 3154176,0 | -1772,8 | 3142765,293 |
| 2 | 2006 | 2051,8 | 42 | 1764 | 86175.6 | 4209883,2 | -1497,0 | 2240962,939 |
| 3 | 2007 | 2799,0 | 45 | 2025 | 125955 | 7834401,0 | -749,8 | 562176,9695 |
| 4 | 2008 | 3319,9 | 95 | 9025 | 315390,5 | 11021736,0 | -228,9 | 52388,16716 |
| 6 | 2009 | 3577,6 | 74 | 5476 | 264742,4 | 12799221,8 | 28,8 | 830,3263905 |
| 7 | 2010 | 3685,1 | 45 | 2025 | 165829,5 | 13579962,0 | 136,3 | 18581,88408 |
| 8 | 2011 | 4289,2 | 31,2 | 973,4 | 133823,0 | 18397236,6 | 740,4 | 548214,9418 |
| 9 | 2012 | 4525,2 | 28,4 | 806,5 | 128515,6 | 20477435,0 | 976,4 | 953387,0033 |
| 10 | 2013 | 4880,7 | 37,9 | 1436,4 | 184978,5 | 23821232,5 | 1331,9 | 1773998,592 |
| 11 | 2014 | 4821,3 | 95,1 | 9044,0 | 458505,6 | 23244933,7 | 1272,5 | 1619295,404 |
| 12 | 2015 | 5225,2 | 59,2 | 3504,6 | 309331,8 | 27302715,0 | 1676,4 | 2810368,542 |
| 13 | 2016 | 5183,2 | 138,7 | 19237,6 | 718909,8 | 26865562,2 | 1634,4 | 2671313,649 |
| Cəmi | | 46134,2 | 716,5 | 55942,8 | 2936557,6 | 192708495,2 | 3548,8 | 16394283,7 |
| **Orta qiymət** | | 3548,8 | 55,1 | 4303,3 | 225889,0 | 14823730,4 | 273,0 | 1261098,7 |

(2) sistem tənliyini cədvələ əsasən aşağıdakı qaydada yazmaq olar:

$$\begin{cases} 13 \cdot a_0 + 716.5 \cdot a_1 = 46134.2 \\ 716.5 \cdot a_0 + 55942.8 \cdot a_1 = 2936557{,}6 \end{cases}$$

Beləliklə də ikinci tənlik aşağıdakı kimi qiymət alacaqdır.

$$a_1 = 23{,}9$$

$$a_0 = 2231.5$$

Xətti reqressiya modeli

$\hat{y}_x = 2231.5 + 23,9 \cdot x$ kimi olacaqdır.

Determinasiya əmsalı ($R^2$) korrelyasiya əmsalının ($r_{xy}$) kvadratına bərabərdir.

$$R^2 = (0,39)^2 = 0,15$$

Bu qiymət onu göstərir ki, Azərbaycanda 2005–2016–ci illər arasında kənd təsərrüfatının ümumi həcminin dəyişməsinin nəticəsi olan 15% həmin illərdə kənd təsərrüfatına lizinq xidmətlərinin göstərilməsilə izah edilə bilər, qalan 85% isə reqressiya tənliyində nəzərə alınmayan faktlara görə baş verir.

Regionlarda lizinq xidmətlərinin həcmi ilə kənd təsərrüfatında istehsal olunan məhsulun ümumi həcmi arasında əlaqəni müəyyən etmək məqsədilə elastiklik əmsalının orta qiymətini hesablaya bilərik:

$$\overline{E}_{yx} = a_1 \frac{\overline{x}}{\overline{y}};$$

$$\overline{E}_{yx} = \frac{23,9 * 55.1}{3548.8} = 37,1\%$$

$\overline{E}_{yx}$ = 37,1%–ə bərabər olması bildirir ki, kənd təsərrüfatına lizinq xidmətlərinin həcminin orta hesabla 1% artması regionlarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarında umumi həcmin təqribən 0.37%-ə qədər çoxalmasına səbəb olur. Deməli tədqiq edilən sahədə çoxsaylı ehtiyat imkanları mövcuddur və onlardan səmərəli istifadə olunmalıdır.

Elmi-texniki tərəqqi bazar iqtisadiyyatı şəraitində təsərrüfat strategiyasının ən mühüm elementlərindən olduğuna görə lizinq yolu ilə alınan məhsulların elmtutumluluq dərəcəsi üstünlük təşkil etməlidir.

**4. Lizinq yolu ilə alınmış kənd təsərrüfatı maşınlarına optimal texniki xidmətin təşkili**.

Ölkəmizin iqtisadi fəaliyyət sahələrində əsas istehsal fondlarının yeniləşməsində böyük rolu olan lizinq əməliyyatları təkcə fermer təsərrüfatlarının, aqrar-emal müəssisələrinin müasir texnikanı əldə etməsini deyil, həm də bu texnikanın məhsuldar işinin təmin edilməsi üçün ona optimal texniki xidmətin təşkilini də əhatə edir.

Mövsümi kənd təsərrüfatı işlərinin yerinə yetirildiyi zaman texniki nasazlıqlara görə vaxt itkiləri baş verir ki, bu da bütövlükdə kənd təsərrüfatında geniş təkrar istehsal prosesinə mənfi təsir göstərir. Bu boşdayanmanın qarşısını aimaq üçün tələb olunan ehtiyat hissələri vaxtında əldə edilməlidir ki, kənd təsərrüfatı texnikasından fasiləsiz və səmərəli istifadəni təmin etmək mümkün olsun.

Lizinqlə alınan texniki avadanlıqların uzunömürlülüyünü təmin etmək üçün xarici təcrübə də nəzərə alınmaqla, texnikadan istifadə formaları və xidmətin səmərəli təşkili vacib şərtdir. Belə ki, Qərbi Avropa ölkələrində kiçik fermer təsərrüfatları texnikadan birgə istifadə formaları zamanı aşağıdakı üstünlüklərə  malik olurlar: texnikanın il ərzində optimal iş həcmi təmin edilir; kiçik fermer təsərrüfatlarında bahalı texnikadan istifadə imkanları yaradılır; texniki avadanlığın alınmasına və saxlanmasına çəkilən xərclər azalır, məhsuldarlıq isə artır.

Kənd təsərrüfatının maddi-texniki bazası möhkəmləndikcə texnikadan səmərəli istifadə olunmasına, onların keyfiyyətli təmirinə və texniki xidmətə ehtiyac da artır.

İlk mərhələdə kənd yerlərində üç səviyyədə istehsal-texniki xidmət müəssisələrinin yaradılması məqsədəuyğun hesab edilir:

1. Aşağı səviyyədə istehsal-texniki xidmət müəssisələri. Bu qrup müəssisələr kəndli (fermer) təsərrüfatlarına xırda texniki təmir xidməti göstərirlər.
2. Orta səviyyədə təşkil edilmiş aqroservis xidməti müəssisələri. Bu müəssisələr bahalı və mürəkkəb texnika ilə kəndli (fermer) təsərrüfatlarına müxtəlif növ xidmət göstərir.
3. Yüksək səviyyədə xidmət işini yerinə yetirən müəssisələr. Bu qrup müəssisələr kənd təsərrüfatı məhsulları istehsalçılarına yüksək səviyyədə ixtisaslaşdırılmış istehsal-texniki xidmət işini yerinə yetirirlər. Buraya təmir zavodlarını, mürəkkəb mexanizmləri təmir edən texniki təmir emalatxanalarını, ehtiyat hissələri hazırlayan və quraşdıran texniki xidmət müəssisələrini və s. aid etmək olar.

Odur ki, aqrotexservis müəssisələri texniki xidmətə tələbatını təmin edə bilən mühit, şərait və imkan yaratmalıdır. Maşınların etibarlılığı nəzəriyyəsinə görə  onların texniki vəziyyət parametrləri (TVP) müəyyən kompleks qiymətlərlə təyin olunur və bu qiymət nominal həddən son həddə qiyməti istiqamətində dəyişir. Əgər TVP kompleksinin qiyməti nominal və son hədd qiymətləri arasındadırsa, onda maşın işləmə qabiliyyətli, əks halda isə nasazdır. Əgər kənara çıxma yol verilə bilən

qiymətdən artıqdırsa, onda TVP nominal qiymətə qədər bərpa olunur, əks halda isə bərpa olunmur.

Texniki xidmət və təmir işləri elə təşkil edilməlidir ki, təsərrüfatı müəssisələri yalnız istehsalla məşğul olsunlar. Bu isə istehsalçılarla texniki xidmət müəssisələri arasında sağlam təşkilati-iqtisadi münasibətlərin düzgün qurulmasından asılıdır. Bütün bunlar isə könüllülük prinsiplərinə əsaslanmalı, bu prosesdə müqavilə münasibətlərinə üstünlük verilməli, texniki xidmətlər və təmir işləri üzrə qiymətlər tərəflərin razılığına əsasən müəyyənləşdirilməlidir.

**5. Lizinqlə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi.** "Lizinq xidməti haqqında" qanun 1994-cü ildə qəbul edilmişdir. Ölkəmizdə lizinq münasibətlərinin təşkilinin xüsusiyyətləri inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanır. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 38-ci fəslinin 747-751-ci maddələri lizinq münasibətlərinə həsr olunmuşdur. Respublikamızda lizinq fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 23 oktyabr 2004-cü il tarixli 468 saylı sərəncamı, Nazirlər Kabinetinin müvafiq qərarları, Vergi Məcəlləsi (Fəsil XV-maddə 209 və 210), Mülki Məcəllə (Fəsil 38 - Maddə 747, 748, 749, 750 və 751), Mərkəzi Bankın normativ təlimatları və s. normativ aktlarla tənzimlənir.

Lizinq xidmətləri haqqında qanunvericilik bazasını araşdırarkən lizinqin inkişafı üçün, ilk növbədə, vahid qanununvericiliyə ehtiyacın olduğu hiss edilir.

"Lizinq xidməti haqqında" Azərbaycan Respublikası Qanununun III fəsil, maddə 7-də lizinq müqaviləsinin subyektləri ilə bağlı göstərilir ki, lizinq müqaviləsinin subyektləri öz əmlakini lizinq müəssisəsinə satan hüquqi və fiziki şəxslərdir.

Lakin bu maddə "Öz əmlakını lizinq müəssisəsinə satan və ya birbaşa istehlakçıya verən hüquqi və fiziki şəxslər" kimi verilərsə, aşağıdakı üstünlüklərə nail oluna bilər:

1. Əmlak birbaşa istehsalçıdan lizinqə alınarsa, vasitəçi olmadığından, onun qiyməti aşağı olacaq;
2. Bu yolla lizinqə verilən avadanlıq ikiqat vergilərdən azad olacaq;
3. İstehsalçı ilə lizinq icarəçisinin arasında birbaşa qarşılıqlı əlaqə yaranır ki, bu da icarəçinin tələblərinin təmin olunmasına və eləcə də lizinq obyektinin daha yaxşı zəmanətli servisinə şərait yarada bilər.

Eyni zamanda, qanunvericilikdə mövcud olan boşluqlar səbəbindən hazırda lizinq şirkətləri operativ lizinq xidməti göstərə bilmirlər. Halbuki, dünyada operativ maliyyə lizinqindən daha çox istifadə olunur və tənəzzül dövründə məhz bu forma stabilləşdirici funksiyaları icra etmişdir. Azərbaycanda hal-hazırda operativ lizinqin rolu süni olaraq azaldılmışdır və bütün stimullaşdırma tədbirləri ancaq maliyyə lizinqinə yönəldilmişdir ki, bu da ölkədə xarici təcrübədən istifadə imkanlarını azaldır.

Aqrar sahənin kredit və investisiya cəlbediciliyinin artırılması baxımından aqrar sığorta sisteminin inkişaf etdirilməsi mühüm əhəmiyyətə malik olduğuna görə "Kənd təsərrüfatı məhsullarının sığortası haqqında" qanun layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunub. Bu layihədə aqrar sığorta sisteminin yeni inkişaf mexanizmləri ilə bağlı məsələlər tam şəkildə öz əksini tapmışdır. Hazırda sığorta sahəsində fəaliyyət göstərən dünyanın ən böyük təşkilatları, habelə beynəlxalq maliyyə institutları ilə Azərbaycanda aqrar sığorta sisteminin köklü şəkildə yenidənqurulması ilə bağlı danışıqlar aparılır, həmçinin bu sahədə qabaqcıl təcrübələr öyrənilir. Aqrar sığorta sisteminin inkişafı fermerlərin müvafiq resurslarla təminatının gücləndirilməsi üçün mühüm vasitələrdən biri ola bilər.

**6. Lizinq xidmətinin səmərəliliyinin yüksəldilməsi yolları.** Aqrar bölmənin dayanıqlı inkişafı və Azərbaycan iqtisadiyyatının inkişaf etmiş sektoruna çevrilməsi üçün aparılan aqrar siyasət daha yaradıcı, məqsədyönlü və mütərəqqi xarakter daşımalı, bu siyasətin əsas məqsədi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsindən ibarət olmalıdır. Fikrimizcə lizinq xidmətinin səmərəliliyinin yüksəldilməsi üçün aşağıdakı vəzifələrin icrası məqsədəuyğundur:

- bütün əhali qruplarının tələbatını ödəmək məqsədilə tələb olunan həcmdə və müvafiq istehlak xarakteristikalarına malik olan ərzaq mallarının istehsalı, saxlanması, emal edilməsi və satışı üçün tarazlaşdırılmış sistem yaradılması;
- ölkənin ərzaq təhlükəsizliyi siyasətinə və qarşılıqlı faydalı xarici ticarətə xas olan üstünlüklərin səmərəli şəkildə əlaqələndirilməsi, ölkəyə keyfiyyətsiz, aşağı keyfiyyətli məhsullar gətirilməsinə, habelə yerli istehsal hesabına təmin edilə biləcək məhsul növlərinin idxalına düşünülmüş məhdudiyyətlər tətbiq edilməsi əsasında ərzaq müstəqilliyinin lazımi səviyyədə saxlanması;
- rəqabət mühitinin formalaşması mexanizminin müəyyən edilməsi;
- kənd təsərrüfatının resurs potensialının tərkib hissələrinin –

torpaqların münbitliyinin, cins heyvandarlıq və toxumçuluğun, mütərəqqi texnologiyaların, elmi-texniki potensialın qorunub saxlanması və lizinq yolu ilə tədricən artırılması.

- «Aqrolizinq» ASC vasitəsilə bərpa olunmuş texnikanın texniki-iqtisadi əsaslandırılmasını həyata keçirməklə lizinqinin reallaşdırılması;

Dünya təcrübəsində iqtisadiyyatda böhranlı vəziyyəti aradan qaldırmaq üçün iki klassik modeldən - istehsalçıların vergilərlə və başqa vasitələrlə stimullaşdırılması, innovasiya fəallığı və yeni texnologiyalar əsasında istehsalın yenidən qurulması vasitələrindən istifadə edilir. Bu baxımdan, kənd təsərrüfatında istehsalın artırılmasının həlledici amili lizinq fəaliyyətini gücləndirmək vasitəsilə ərzaq məhsullarının istehsalını və satış bazarını genişləndirmək vacib şərtdir. Bu makroiqtisadi məsələ həll edilməsə, digər formalar gözlənilən səmərəni verməyəcəkdir.

Fikrimizcə, lizinq xidmətinin səmərəliliyinin yüksəldilməsi üçün ilk növbədə regionlarda lizinq fəaliyyətinin inkişafına dair müvafiq proqramlar həyata keçirilməli və lizinq üçün girov fondlarının yaradılması, eləcə də investisiya kreditlərinin verilməsi reallaşdırılmalıdır.

Lizinqin inkişaf perspektivi olan ən sərfəli sahələrindən biri də ölkənin regionlarında kənd təsərrüfatı məhsullarının saxlanması məqsədilə soyuducu avadanlıqların, saxlanma anbarlarının, o cümlədən kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün istilik avadanlıqlarının uzun müddətə maliyyələşməsi sahəsində ola bilər.

Ölkəmizdə lizinq xidmətlərinin təşkilati-iqtisadi mexanizminin iqtisadi əsaslarını maliyyə-sığotra və vergi-bank sistemi təşkil edir. Regionlarda lizinq xidmətinin təşkilati-iqtisadi mexanizmini təkmilləşdirmək məqsədilə aşağıdakılar vacib hesab edilir:2

- lizinq fəaliyyətinin normativ hüquqi bazasının, elmi-metodik təminatının və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi;
- lizinq xidməti prosesində texnikanın gətirilməsi və müqavilə əsasında məhsul istehsalçılarına verilməsində son nəticə kimi rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasının stimullaşdırılması;
- lizinq fəaliyyəti üçün maliyyə dəstəyinin artırılması;
- lizinq yolu ilə alınmış kənd təsərrüfatı maşınlarına optimal texniki xidmətin təşkili;
- regionlarda fəaliyyət göstərəcək aqroservis filiallar şəbəkəsinə dəstək verilməsi.

Azərbaycanın regionlarında lizinq xidmətinin səmərəliliyinin artırılması onun bilavasitə elmi-texniki tərəqqinin nailiyyətləri ilə əlaqəli şəkildə reallaşdırılmasını tələb edir. Belə ki, elmi-texniki tərəqqinin prioritet istiqamətlərindən biri olan biotexnologiya enerji alınması üçün qeyri-ənənəvi, ekoloji təmiz üsullar yaratmağa və insan üçün çox zəruri olan çoxsaylı məhsullar istehsal etməyə imkan verir. Bu halda xammal kimi, bir qayda olaraq, kənd təsərrüfatının tullantılarından istifadə edilir. Biotexnologiyaların üstünlüyü kənd təsərrüfatında bitki tullantılarını emal etməklə həm ekoloji problemi həll etmək, həm də ekoloji təmiz məhsulların alınmasındadır.

Lizinq xidmətinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi üçün nanotexnologiyaların istifadəsi də perspektivli variant hesab edilə bilər. Belə ki, dünyada əhalinin ərzaq təminatı probelminin kəskinləşdiyi bir şəraitdə nanotexnologiyaların praktiki tətbiqi ilk növbədə kənd təsərrüfatı bitkilərinin çoxunu genetik baxımdan modifikasiya etməyə, onların məhsuldarlığını artırmağa və ziyanvericilərə, alaq otlarına qarşı daha davamlı bitki sortlarının yaradılmasına, alınan məhsulların kaloriliyinin artırılmasına imkan verər. Artıq bir sıra ölkələr gen mühəndisliyi və qida məhsullarının genetik modifikasiyası ilə əlaqədar olan irimiqyaslı layihələr həyata keçirirlər.

«Aqrolizinq» dövlət şirkəti olduğundan onunla rəqabətə girə biləcək qeyri-dövlət lizinq şirkətləri, demək olar ki, yoxdur. Bu isə digər lizinq şirkətlərinin kənd təsərrüfatı dairəsindən kənarda qalmasına səbəb olur. Yəni qeyri-dövlət lizinq şirkətləri üçün rəqabət mühiti formalaşmalıdır ki, bu da lizinq xidmətinin səmərəliliyinin yüksəldilməsinə, əmtəə istehsalçılarına rəqabət qabiliyyətini artırmağa imkan verər.

Ümumiyyətlə, ölkəmizin aqrar sektorunda lizinq xidmətinin maddi-texniki təchizat sahəsində rolunu və əhəmiyyətini artırmaq üçün «Aqrolizinq» ASC-nin fəaliyyətinin əsaslı şəkildə təkmilləşdirilməsinə zəruri ehtiyac duyulur.

**Yerinə yetirilən elmi-tədqiqat işinin nəticələri aşağıdakı təklifləri irəli sürməyə imkan verir:**

- Lizinqin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi üçün müxtəlif səviyyəli xidmət müəssisələrinin yaradılması;
- Xarici ölkələrin maşınqayırma müəssisələri ilə müştərək istehsalın təşkil edilməsi istiqamətində işlərin genişləndirilməsi;
- lizinq fəaliyyətinin səmərəliliyinin artırılması üçün özəl lizinq qurumlarının yaradılmasının stimullaşdırılması;

- lizinq yolu ilə alınmış kənd təsərrüfatı maşınlarının uzunömürlülüyünü təmin etmək üçün regionlarda aqroservis filialları şəbəkəsinin genişləndirilməsi;
- aqrar sahədə məhsuldarlığının artırılması üçün yeni texnologiyaların (biotexnologiya, nanotexnologiya) tətbiqinə və ekoloji standartlara cavab verən mineral gübrələrlə təminata üstünlük verilməsi;
- lizinq yolu ilə əldə olunan məhsuldar toxumların və cins mal qaranın seçilməsində təbii-iqlim şəraitinin nəzərə alınması;
- qanunvericilik bazasının müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi;
- regionlarda lizinq xidmətlərinin səmərəliliyini yüksəltmək məqsədi ilə rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması və rəqabət mühitinin formalaşması mexanizminin müəyyən edilməsi.

**Tədqiqatın əsas məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. İqtisadi islahatlar: dövlət mülkiyyətinin özəlləşdirilməsinin və aqrar islahatların əhəmiyyəti. «Nasir» nəşriyyatı. Bakı, 2004. 106 səh.
2. Regionların sosial-iqtisadi inkişafında lizinqin rolu. Regionların sosial-iqtisadi inkişafının nəzəri və praktiki məsələləri mövzusunda elmi-praktik konfransın materialları. Gəncə, 2008, səh. 157-162
3. Azərbaycanda lizinq xidmətləri bazarının xüsusiyyətləri. Azərbaycan ETKTİ və Tİ-nun elmi əsərləri. Bakı, 2008, №4, səh. 307 – 310
4. Lizinqin mahiyyəti və kənd təsərrüfatının texniki təchizatında onun rolu. Azərbaycan ETKTİ və Tİ-nun elmi əsərləri. Bakı, 2009, №4, səh. 182-184
5. Lizinqin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi. Əmək və ƏSMN Əmək və SP üzrə ET və Tədris Mərkəzinin elmi əsərlər toplusu. Bakı, 2009, V buraxılış, səh. 157-163
6. Azərbaycanda lizinqin inkişaf mərhələləri və lizinq müqavilələri. AMEA İqtisadiyyat İnstitutu. Elmi əsərlər, IV buraxılış - Bakı, 2009, səh. 349-353
7. Организационно-экономические основы развития лизинга в аграрном секторе Аграрно-экономич. наука и технологии. Международный научно-методический и практический, ежеквартальный реферированный журнал. Тбилиси, 2009, № 4, с. 91-95
8. Azərbaycanın kənd təsərrüfatında lizinq əməliyyatlarının mövcud vəziyyəti. «Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı

təminatının iqtisadi problemləri» mövzusunda Respublika elmi-praktik konfransın materialları. Bakı, 2009, səh. 195-196

9. Лизинг – как одна из эффективных форм обеспечения развития сельского хозяйства. Вопросы экономических наук. Москва: 2010, №2, с. 46-51

10. Bazar iqtisadiyyatı şəraitində innovasiyaların sistemli təsviri. «İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşması» problemlərinə həsr edilmiş Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2010, səh. 233-234

11. Aqrar bölmədə lizinq yolu ilə istehsal vasitələri bazarının formalaşması istiqamətləri. «Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri» mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2010, səh. 584-585

12. Sosial problemlərin həllində lizinq xidmətinin təkmilləşdirilməsinin əhəmiyyəti. Əmək və sosial problemlər üzrə ET və Tədris Mərkəzinin elmi əsərlər toplusu. Bakı, 2010, № 1 (6), səh. 173-180

13. Lizinq fəaliyyətinin regional inkişafının sosial aspektləri. Əmək və sosial problemlər üzrə ET və TM-nin elmi əsərlər toplusu. Bakı, 2011, № 2 (8), səh.135-138

14. Aqrar islahatlar və lizinq fəaliyyətinin inkişafı. «Aqrar iqtisadiyyat müstəqilliyin 20 ilində» mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2011, səh. 265-269

15. Ekoloji kənd təsərrüfatı və innovasiyaların tətbiqində lizinqin rolu. «Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi» mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2012, səh. 481-484

16. Lizinq aqrar islahatların vacib ünsürü kimi. «Aqrar iqtisadiyyatın aktual problemləri» mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2012, səh. 280-282

17. Azərbaycanda ərzaq təhlükəsizliyi və lizinq fəaliyyətinin müasir vəziyyəti. «Qloballaşma mühitində iqtisadi təhlükəsizliyin təmin olunmasında gömrük tənzimlənməsinin rolu» mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, BDU, 2012, səh. 519-525

18. Heydər Əliyev və regionlarımızın sosial-iqtisadi inkişafı. «Heydər Əliyev və Azərbaycan təhsili» mövzusunda Respublika elmi konfransının materialları. Bakı, AzTU, 2013, səh. 166-168

19. Müasir texnoparkların yaradılması iqtisadiyyatın innovativ inkişafının əsasıdır. «Azərbaycanda yüksək texnologiyaların texniki-iqtisadi problemləri» mövzusunda Respublika elmi konfransının materialları. Bakı, AzTU, 2013, səh. 193-195

20. Azərbaycan Respublikasının regionlarında lizinq servis kooperativlərinin inkişafi. "Kooperasiya" elmi-praktiki jurnalı, Bakı, 2014, №1 (32), səh. 4-9

21. Пути совершенствования агролизинговой системы в Азербайджане. Информационно-аналитический журнал «Нефть, газ и бизнес». Москва, 2014, №5, səh. 43-47

22. Regionlarda texniki vasitələrin lizinq yolu ilə təminat məsələləri. AMEA İqtisadiyyat İnstitutu. Elmi əsərlər, I buraxılış, Bakı, 2014, səh. 158-163

23. Lizinq fəaliyyətinin islam bankçılığı məhsulları ilə maliyyələşdirilməsi imkanları. "İslam maliyyəsi: müasir vəziyyət və gələcək gözləntilər" mövzusunda beynəlxalq konfransın məqalələr toplusu. Bakı, AMEA İqtisadiyyat İnstitutu, 2015, səh. 75-79

24. Qloballaşma şəraitində aqrar sahənin innovativ inkişafı. "Regionların innovativ sosial-iqtisadi inkişafı: reallıqlar və prespektivlər" mövzusunda respublika elmi konfransının materialları, Bakı, 2015, s 99-102

25. Lizinq fəaliyyətinin inkişafının ərzaq təhlükəsizliyinin təmin olunmasında rolu. "Azərbaycanın qeyri-neft sektorunda innovasiya fəaliyyətinin genişləndirilməsi" mövzusunda Respublika elmi konfransının materialları, Bakı, 2016, s 424-427

26. Lizinqə alınmış texnikadan istifadənin iqtisadi səmərəliliyinin artırılması yolları. "Strateji islahatlar: qabaqlayıcı vergi siyasəti" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları, Bakı, 2017, s. 183-185

**Асадов Заур Рауф оглы**

Направления совершенствования организационно-экономического механизма лизинговой службы в регионах Азербайджанской Республики

## РЕЗЮМЕ

Одной из наиболее важных задач в нашей республике является обеспечение населения продуктами питания. Для решения этой проблемы особое внимание уделяется созданию в стране лизинговых компаний, разработке лизинговых технологий. Поэтому в современных условиях совершенствование организационно-экономического механизма лизинговых услуг в регионах республики является актуальным.

Диссертация состоит из введения, 3 глав, заключения, списка использованной литературы, выводов и предложений.

В введении рассматриваются актуальность проблемы, степень ее изученности, цели и задачи исследования, объект и предмет исследования, информационная база, научная новизна, а также практическая значимость результатов исследования.

В I главе диссертации под названием «Теоретические основы лизинговых отношений» исследуются суть, типы и исторические аспекты лизинга, зарубежный опыт лизинговой деятельности, формирование материально-технических ресурсов аграрного сектора, а также лизинговые соглашения и особенности лизинговых соглашений в регионах.

Во II главе диссертации - «Современное состояние лизингового рынка в регионах» анализируются текущее состояние использования производственного потенциала регионов и материально-технической поддержки аграрного сектора, а также оценивается современное состояние организационно-экономического механизма лизинговых услуг в регионах Азербайджана.

Во III главе диссертации под названием «Пути совершенствования организационно-экономического механизма лизинговых услуг в условиях рыночной экономики», определена взаимосвязь между общим объемом производства в аграрном секторе и объемом лизинговых услуг, организацией оптимального обслуживания сельскохозяйственной техники, приобретенной путем лизинга, а также способы улучшения лизинговой службы в регионах Азербайджана.

**Asadov Zaur Rauf oglu**

Directions of improvement of the organizational and economic mechanism of the leasing service in the regions of the Republic of Azerbaijan

## SUMMARY

One of the most important tasks in our republic is to provide the population with food. Particular attention is paid to the creation of leasing companies in the country to solve this problem, the development of leasing technologies. Therefore, the improvement of the organizational and economic mechanism of leasing services in our regions is relevant in modern conditions.

The thesis consists of introduction, 3 chapters, conclusion, a list of used literature, and proposals.

The introduction examines the relevance of the subject, the level of study of the problem, the goals and objectives of the study, the object and subject of research, the information base, scientific novelty, and the practical significance of the results of the study.

In the first chapter of the dissertation, “Theoretical bases of leasing relations”, the essence, types and historical aspects of leasing, foreign experience of leasing activity, formation of material and technical resources of the agrarian sector, as well as leasing agreements and features of leasing agreements in the regions are investigated.

The second chapter of the study is called “Current state of the leasing market in the regions." This chapter analyzes the current level of use of production capacity in the regions and the current state of logistical support for the agricultural sector, as well as assesses the current state of the organizational and economic mechanism of leasing services in the regions of Azerbaijan.

The third chapter of the thesis is entitled "Ways to improve the organizational and economic mechanism of leasing services in a market economy". The correlation between the total volume of production in the agrarian sector and the volume of leasing services, the organization of the optimal servicing of agricultural equipment acquired by leasing, as well as ways to improve leasing in the regions of Azerbaijan are defined in this chapter.